Ruhuma gərəksən çox, bir bax!

Körpü üzərində adımız yazıb,

***

Dəmindən başqa dəmi dəm demirəm,
Qəmindən başqa qəmi qəm demirəm,
Dodağin şinnisi ağrım dərmanıdır,
Visaldən başqayi məlhəm demirəm.

# Çağdaş özbək sözü

## Zilalə Xocaniyazova



**Zilalə Xocaniyazova 1973-cü il 16-iyunda anadan olub. Özbəkistan Yazıçılar Birliyinin üzvüdür. "Ürəyimdə bir çiçək bitir", "Könül şevəsi", "Ürəyə yol" şeir və "Jurnalistika və gəncliyin siyasi idealı", "Kütləvi informasiya vasitələri və ictimai nəzarət", "Qloballaşma şəraitində gənclik mənəviyyat", "Ailə tarix və inkişaf" şeir və publisistik kitabların müəllifidir. Uluqbəy mükafatı laureatı.**

### Təşrif

Bəli, bir gün birdən, bilməm qafildən...
Ürək qapısını döyüb gəldi Bəxt.
O uzaq bir yerdə yaşayır idi,
Mən məyus olmuşdum, gözləb çox müddət.

Günəş işığından, dan nəfəsindən,
Əlində bir dəstə gülü var idi.
Ürəyim quş kimi çıxdı qəfəsdən,
Hər yan payız idi, qəlb bahar idi.

Tələsik geyincə qızıl donunu,
Özünü bəzədib, xoşbəxt oldu o.
Gözləməkdən doyan məyus, kədərli,
Ruhumu məhv edib nurtək gəldi o.

Daha tək deyildim, həsrət yurdunda
Sanki parlayırdı sağım və solum.
Nəsə yaşamaq-çün ümid verirdi...
Axı Bəxt sıxırdı sərt-sərt bu əlim.

— Mən gəldim! — dedi o, — Az gec olsa da,
Səhv oldum kəftdəki yazıqlar ara...
Sonra gülümsəyib həmdə utanıb,
Dedi: ünvanını yanlış yazmışam ...

Bəli, bir gün birdən, bilməm qafildən...

### Aprel

Ağac sırğasını çıxarıb,
Götürəcək oynaqı bir yel.
Pəncərədən ahistə girib,
Gülümsəyir mən sevən aprel.

O, dilo, ürək asimani,
Axidacaq gözündən yaşin.
O qədər çox qalma yağışda,
Bax, qayıtdı geri sirrdaşin.
Bahar güldən gültac düzəldib,
Bağlarıma eylər bəhşidə.
Çiçəklərin nazini istəb,
Yer oyanır yenə yuxudan.

Qızılgül gödəkçəsi qət-qət,
Utanıraq yeçir hər səhər.
Şirin nağıl başla sən, ancaq
Məhəbbətdən danışma bahar.

Pəncərədən ahistə girib,
Gülümsəyir mən sevən aprel...

### Payız

Küləklər əsdirir gül-xəzanimi,
Solğun rəng doldurur dörd tamanımı,
Xatirlər əzablab yazıq canımı,
Birdən ürək yinə ağrıyır səssiz...
Bəlkə də hər şeyə günahkar payız...

Vaxt təsəlli verir, bilmədi könlüm,
Nə-nə odlar söndü, sönmədi könlüm,
Dünya şişdi, inkar etmədi könlüm,
İllər ağrılarım artırdı, əfsüs,
Bəlkə də hər şeyə günahkar payız...

Yağışlar gecələr dərdləşib bitdi,
Bu gözəl bağlara bir sükut çökdü,
Ürək sənsizliyə təslim olarmı indi,
Xəyal unudulub, günlərim məyus...
Bəlkə də hər şeyə günahkar payız...

Bir vaxtlar... Payızı gözlədik intiq,
Diydar fəsli idi, bəxt idi tartıq,
İndi ürəklərdə dərdi — ayrılıq,
Bağlar xatırladır əşq qoxusunu hənuz,
Bəlkə də hər şeyə günahkar payız...

**Uyğunlaşdıran: Rəhmət Babacan**

Türküstan.- 2021.-7-13 dekabr.- S.14.